*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 noyabr 2014-cü il № 91 (1908) Qiyməti 25 qəpik

## Rəsmi xronika

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Conatan Endryu Karrın etimadnaməsini qəbul edib.*

*Azərbaycan ilə Yeni Zelandiya arasında çox yaxşı siyasi əlaqələrin olduğunu deyən dövlətimizin başçısı bu əlaqələrin iqtisadi sahədə də inkişaf etdirilməsi üçün güclü qarşılıqlı siyasi iradənin olduğunu vurğulayaraq biznes, sərmayə qoyuluşu və digər sahələrdə imkanların araşdırılmasının zəruriliyini qeyd etdi.*

*Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafael Mendivil Peydronun etimadnaməsini qəbul edib.*

*Prezident İlham Əliyev Azərbaycan ilə İspaniya arasında siyasi, iqtisadi və digər sahələrdə fəal əməkdaşlığın mövcud olduğunu vurğuladı. Dövlətimizin başçısı beynəlxalq tədbirlərdə İspaniyanın Baş naziri ilə görüşünü və əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı aparılan səmərəli müzakirələri məmnunluqla xatırladı.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Noyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasının Baş naziri Çanq Honqvonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında infrastruktur, energetika, inşaat, informasiya texnologiyaları, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Malta Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Con Debononun etimadnaməsini qəbul edib.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğuladı. Prezident İlham Əliyev Malta Respublikasının Baş naziri ilə görüşünü və ikitərəfli münasibətlərimizin inkişafına dair məsələləri müzakirə etdiklərini məmnunluqla xatırladı. Enerji sektorunda əməkdaşlığımızın artıq mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin digər sahələrdə də genişləndirilməsinin zəruriliyini qeyd etdi.*

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Münaqişənin həll edilməsi bölgədə sabitliyə əsas təminatdır



***Azərbaycanda yaşlı və orta nəsillərə yaxşı məlumdur ki, bölgəmizdə sülhün və sabitliyin qorunub saxlanması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Düşünülmüş daxili və xarici siyasi kursun müəllifi olan böyük öndər öz hakimiyyəti dönəmində Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirməklə yanaşı, mühüm iqtisadi-enerji layihələrinin həyata keçirilməsinə önəm verirdi. Məhz onun təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlı beynəlxalq neft müqaviləsinin imzalanması Cənubi Qafqaz regionunda sülhün və sabitliyin möhkəmlənməsində əsas rol oynadı.***

Müdrik dövlət xadiminin siyasi kursunda başlıca istiqamətlərdən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində atılan addımlar idi. Beynəlxalq hüquqa hörmət edilməsini əsas götürən dövlətimiz ilk gündən münaqişənin danışıqlar vasitəsilə həll edilməsinə önəm verib. Həmçinin, sülhün və sabitliyin qorunmasını xarici siyasətində əsas prioritetlərdən biri hesab edən Azərbaycan dövləti beynəlxalq sülhyaratma missiyasına da öz töhfəsini əsirgəməyib. Məhz ulu öndərin sərəncamı ilə ordumuzun tərkibində yaradılmış sülhməramlı kontingent dünyanın qaynar münaqişə bölgələrində sülhün qorunmasında fəal iştirak edib və dövlətimiz hazırkı dövrdə də bu missiyanı davam etdirir.

Fərəhli haldır ki, dahi rəhbərin siyasi məktəbinin layiqli yetirməsi olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin müasir hakimiyyəti dövründə də sülhə dəstək və bölgədə təhlükəsizliyin qorunması dövlətimizin başlıca vəzifələrindən biridir. Bu məqsədlə ölkəmizin qonşu dövlətlərlə münasibətlərində dinc yanaşı yaşamaq haqqında beynəlxalq sülhün prinsiplərinə ciddi önəm verilir. Azərbaycan rəhbərliyi illərdən bəri həll edilməmiş Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll edilməsi üçün öhdəliklər götürdüyünü dəfələrlə mötəbər təşkilatlara bəyan edib.

Bəzi inkişaf etmiş dövlətlərin və beynəlxalq qurumların rəsmiləri Azərbaycanı hərbi xərclərini artırmaqda günahlandırmağa çalışsalar da, ölkəmizin rəhbərliyi birmənalı şəkildə bəyan edir ki, bizim əsas məqsədimiz münaqişənin sülh yolu ilə tənzimlənməsinə nail olmaqdır. Prezident İlham Əliyev dəfələrlə bir sıra dövlətlərin rəhbərləri ilə görüşlərində dünyada ikili standartların mövcudluğuna toxunub və haqlı olaraq qeyd edib ki, hərbi potensialımızı artırmaqda bizi günahlandıran rəsmi dairələr yaxşı olardı ki, işğalçı Ermənistana təsir edərək beynəlxalq hüquqla təsbit edilmiş ərazilərimizin işğaldan azad edilməsinə və bir milyondan artıq soydaşımızın doğma yurd-yuvalarına qayıtmalarına nail olsunlar.

Ağdam rayonuna səfəri zamanı ön xətdə döyüşçülərimiz qarşısında çıxış edən Ali Baş Komandan İlham Əliyev Ermənistan dövlətinin rəsmilərinə mesaj olaraq israrla bildirdi ki, biz öz torpağımızdayıq. Döyüşçülərimiz də öz torpaqlarımızda şəhid olmuşlar. “Sual olunur: erməni əsgərinin - işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var?" Doğrudan da, haqlı və düşündürücü sualdır. Yaxşı olardı ki, özlərini insan hüquqlarının və demokratiyanın təminatçısı kimi qələmə verən nüfuz sahibləri bu məsələyə aydınlıq gətirsinlər.

Bu yaxınlarda Türkiyənin Baş naziri Əhməd Davudoğlu İstanbulda keçirilən tədbirdə çıxışı zamanı Cənubi Qafqaz bölgəsində sülhün və daimi təhlükəsizliyin təmin edilməsində əsas vasitənin Qarabağ münaqişəsinin tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin olduğunu açıqlayıb. Baş nazirə görə, regionda mühüm münaqişə ocağı olan Dağlıq Qarabağ məsələsi beynəlxalq müstəvidə öz həllini birdəfəlik tapmayana qədər burada sülhdən və sabitlikdən söhbət gedə bilməz. Qardaş dövlətin rəsmisi tam məsuliyyəti ilə bildirib ki, Azərbaycanın qanuni əraziləri işğaldan azad edilmədiyi təqdirdə, Emənistan mühüm geosiyasi və iqtisadi layihələrdən kənarda qalacaqdır. Şübhəsiz, işğal faktoru Ermənistanı iqtisadi blokada şəraitində saxlayan və onun inkişafına əngəl yaradan əsas amildir.

Əslində Azərbaycan Prezidenti İlham Əliyev də bu yaxınlarda Bakıda İranın dövlət başçısı ilə görüşündə bu məsələyə toxunaraq bəyan edib ki, iki dövlət arasında uzun illərdir davam edən münaqişənin həll edilməsi bölgədə sabitliyə əsas təminatdır. - Münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi, əlbəttə ki, bölgəyə sülh gətirəcək, - deyə dövlətimizin başçısı bildirib.

Bu yaxınlarda Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gənc zabitlərlə görüşündə ölkəmizin növbəti il üçün dövlət büdcəsində hərbi xərclərin əhəmiyyətli dərəcədə artırılmasından danışan Müdafiə naziri general-polkovnik Zakir Həsənov ordu quruculuğunun daha da inkişaf etdirilməsinin dövlətimizin siyasi kursunun əsas prioritetlərindən olduğunu bir daha vurğulayıb. Nazir bəyan edib ki, Azərbaycan Ordusu hərbi potensialına görə regionda liderdir, sülhün və təhlükəsizliyin təminatçısı olmaq bizim əsas vəzifəmizdir.

Tanınmış siyasi və hərbi ekspertlər də hesab edirlər ki, Qarabağ münaqişəsi həll edilməyənə qədər Qafqaz regionunda etibarlı sülhdən və sabitlikdən danışmaq qeyri-mümkündür. Müharibə heç kimə xoşbəxtlik gətirmir, gərək bu həqiqəti Ermənistan rəsmiləri daha dərindən başa düşsünlər. Mühüm enerji layihələrindən təcrid olunmuş bir dövlətin gələcək varlığı yalnız sual doğura bilər. Artıq işğalçı dövlətin öz ekspertləri, siyasətçiləri də belə bir fikirdə ortaq məxrəcə gəliblər ki, Ermənistan rəhbərliyi avantürist siyasi kursundan əl çəkməli və öz xalqının gələcəyi üçün ciddi şəkildə narahatlıq keçirməlidir.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycanlılara qarşı soyqırımıları tarixinin öyrənilməsində yeni mərhələ

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akt zalında AMEA rəyasət heyətinin 15 oktyabr 2014-cü il tarixli qərarı ilə yaradılmış azərbaycanlılara qarşı soyqırımılarının tədqiqi komissiyasının növbəti iclası keçirilib.***

Akademiyadan AzərTAc-a bildiriblər ki, iclası açan AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli azərbaycanlılara qarşı soyqırımı tədqiqatları komissiyasının işini müasir tələblər səviyyəsində təşkil etmək üçün bu qurumun nəzdində ayrı-ayrı istiqamətlər üzrə elmi bölmələrin yaradılmasının zəruriliyindən söz açıb.

Müzakirələrdən sonra "Azərbaycanlılara qarşı soyqırımılarının tarixi" (rəhbəri AMEA-nın müxbir üzvü Yaqub Mahmudov), "Azərbaycanlılara qarşı soyqırımı siyasəti" (rəhbəri professor Musa Qasımlı), "Azərbaycanlıların deportasiyası tarixi" (rəhbəri tarix elmləri doktoru Kərim Şükürov), "Azərbaycanlılara qarşı soyqırımları tarixi sənədlərdə" (rəhbəri professor Ataxan Paşayev), "Azərbaycanlılara qarşı soyqırımları ədəbiyyatda və incəsənətdə" (rəhbəri akademik İsa Həbibbəyli), "Azərbaycanlılara qarşı soyqırımları internetdə" (rəhbəri akademik Rasim Əliquliyev) bölmələrinin yaradılması qərara alınıb.

Bundan əlavə, iclasda azərbaycanlılara qarşı soyqırımılarının tədqiqi komissiyasının 2015-ci il üçün fəaliyyət planının müəyyənləşdirilməsi məsələsi də müzakirə olunub.

Komissiya Azərbaycanın qaçqınların məskunlaşdığı rayonlarında, döyüş bölgələrində elmi konfranslar və görüşlər keçirməyi də qərara alıb.

## Ermənistanın xarici işlər naziri Stokholmda azərbaycanlı gənclərin sualları qarşısında çətin vəziyyətdə qalıb

Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan İsveçə səfəri çərçivəsində Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunda "Cənubi Qafqazda təhlükəsizlik problemləri" mövzusunda çıxış edəndən sonra İsveç-Azərbaycan Gənclər Təşkilatının fəalları - Rəsul Məcidov, Allahverdi Verdizadə, Aysel Yusubova və Mahirə Muxtarovanın suallarına tuş gəlib.

Verilən suallarda Ermənistanın 20 ildən artıqdır ki, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlaması, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların Ermənistanı təcavüzkar dövlət kimi tanıyaraq onun silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb etməsi qeyd olunub. Bundan başqa, 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərinin erməni hərbi birləşmələri tərəfindən bir gecədə yerlə-yeksan edilməsini, 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 nəfər dinc Xocalı sakininin qəddarlıqla qətlə yetirilməsini tədbir iştirakçılarının diqqətinə çatdıran İsveç-Azərbaycan Gənclər Təşkilatının fəalları Edvard Nalbandyanın bu haqda fikirlərini bilmək istəyiblər.

Çətin anlar keçirən, tələbələrin suallarına uydurma dolu cavablar verən E.Nalbandyan tədbirin bu şəkildə davam etməsindən narahat olduğunu ifadə edib. Sualları cavablandırarkən əllərinin hərəkətindən və sifətindəki ifadədən açıq-aşkar əsəbi olduğu hiss olunan erməni nazirin "salonun 90 faizini deyəsən azərbaycanlılar təşkil edir" ifadəsi vəziyyətin onun üçün necə mürəkkəb olduğunu göstərib.

Tədbirdə erməni diasporundan bir nəfərin belə iştirak etməməsi Ermənistan hakimiyyəti ilə diaspor arasındakı problemlərdən xəbər verir. Bu, E. Nalbandyanın İsveçə səfərinin fiaskoya uğramasının dəlilidir.

**AzərTAc**

# Silahlı Qüvvələrdə həyata keçirilən islahatlar, döyüş hazırlığının vəziyyəti müzakirə edilib





***Noyabrın 26-da cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində Müdafiə Nazirliyinin 2014-cü ilin yekunlarına həsr edilmiş səyyar kollegiyasının genişləndirilmiş iclası keçirilib.***

Toplantıda Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, Müdafiə Nazirliyinin baş idarə və idarə, xidmət rəisləri, birlik və birləşmə komandirləri və qərargah rəisləri iştirak ediblər.

Müdafiə nazirinin rəhbərliyi ilə keçirilən müşavirədə Silahlı Qüvvələrdə həyata keçirilən islahatlar, döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi, onun hərtərəfli təminatı, təşkili və bir sıra xidməti məsələlər müzakirə edilib.

Müdafiə naziri "Silahlı Qüvvələrin 2014-cü ildə xidməti döyüş hazırlığının yekunları və 2015-ci tədris ilində vəzifələri" mövzusunda geniş nitq ilə çıxış edib.



Aparılan fəaliyyətlərlə bağlı birlik komandirlərinin, vəzifəli şəxslərin məruzələri dinlənilib və Müdafiə naziri tərəfindən döyüş qabiliyyətinin daha da yüksəldilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verilib.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul edilib.

Müdafiə nazirinin əmrinə əsasən, 2014-cü ilin döyüş hazırlığının yekunlarına görə hərbi xidmətdə fərqlənən hərbi qulluqçular medallarla təltif edilib, təşəkkür, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Elə həmin gün toplantı iştirakçıları cəbhə bölgəsindəki hərbi hissələrdən birində yaradılmış təlim mərkəzində olub və praktiki tapşırıqları icra ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***27 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 47 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Şuraabad, Yusifcanlı, Mərzili, Sarıcalı, Baş Qərvənd, Kəngərli, Novruzlu, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***28 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 51 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Hacıalılı kəndlərində, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Noyemberyan rayonunun Barekamavan və Voskepar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara və Qaymaqlı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıl Oba, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Yusifcanlı, Novruzlu, Şıxlar, Mərzili, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə aparılan tikinti-quruculuq işlərini yoxlayıb







***Noyabrın 26-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov cəbhəboyu rayonlarda yerləşən hərbi hissə və birləşmələrdə aparılan tikinti-quruculuq işlərini yoxlayıblar.***

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, cəbhə bölgəsindəki hərbi şəhərciklərdə aparılan tikinti və quruculuğun gedişatını yoxlayıb, görülən işlərlə yaxından tanış olub.

Qərargah, əsgər yataqxanaları, tədris kompleksləri, döyüş texnikası üçün saxlanclar, qarovul şəhərcikləri, avtopark, sıra meydanı, yeməkxanalar, əsgər klubu, tibb məntəqəsi, idman meydançası, qazanxana-camaşırxana-hamamxana kompleksləri, transformator yarımstansiyası və eləcə də tikinti gedən digər obyektlərdə olan Müdafiə naziri müvafiq tapşırıq və tövsiyələrini verib.

Müasir tələblər çərçivəsində yenidən qurulan hərbi şəhərciklərdə zəruri hərbi infrastrukturlarla yanaşı, müasir tələblərə cavab verən, bütün məişət şəraiti ilə təmin edilmiş, həmçinin, ailəli hərbi qulluqçuların sosial-məişət ehtiyacları da nəzərə alınmaqla geniş mənzillər, eləcə də subay zabit və gizirlər üçün yataqxana komplekslərinin tikilməsi də nəzərdə tutulub.

Görülən işlərin 2015-ci il ərzində başa çatdırılması planlaşdırılır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Cəbhə bölgəsi - hünər meydanı

***Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində ezamiyyətdə olduğumuz müddətdə düşmənlə çox yaxın məsafədə olan bir neçə döyüş postuna getməyə imkan tapdıq.***

***Budur, artıq növbəti postlardan birindəyik. Bizə təhkim olunan kapitan İntiqam Əmirovun cəld, çevik hərəkətləri, ehtiyatlı, ayıq-sayıq olması diqqətimizdən yayınmır.***

Həqiqətən də, səngər yolu o qədər hamar, təmiz idi ki, buralarda rahat hərəkət etmək mümkün olurdu. Qeyd edək ki, ezamiyyətimizin əsas məqsədi ön xətdə xidmət edən Vətən oğullarının - hərbçilərimizin arzu və istəklərini öyrənib oxucularımızın diqqətinə çatdırmaq idi.

Postda bizi taqım komandirinin müavini gizir Məmməd Orucov qarşılayır. Digər postlarda olduğu kimi, burada da Vətən keşikçiləri üçün yaradılan məişət şəraitinin yüksək olduğunu görürük. Əsgərlər xidmət yerlərində sıraya düzülərək komandirlərinin növbəti əmrlərini gözləyirdilər. Yəqin ki, bir azdan döyüş növbəsinə hazırlaşan əsgərlər təlimatlandırılaraq müşahidə məntəqəsinə yollanacaqlar.

Biz günün nizam qaydalarını pozmadan hərbçilərimizlə söhbətə başlayırıq. Əslən Qazax rayonundan olan gizir Məmməd Orucov tariximizə nəzər salaraq, mənfur ermənilərin məqam düşdükdə xarici havadarlarının dəstəyi ilə xalqımızın başına gətirdiyi bəlalardan, müsibətlərdən söz açır. Bildirir ki, vaxtaşırı tabeliyində olan şəxsi heyətə erməni faşistlərinin törətdiyi faciələrdən, terror aktlarından, Xocalı soyqırımından danışır.

- Biz tariximizin faciələrlə dolu olan səhifələrini unutmamalıyıq, - deyir gizir. - Hazırda torpaqlarımızın 20 faizi erməni qəsbkarlarının işğalı altındadır. Lakin özlərini dünyaya məzlum millət kimi nümayiş etdirən ermənilər bu arzularını heç vaxt gerçəkləşdirə bilməyəcəklər.

Kapitan İ.Əmirov isə deyir ki, şəxsi heyətin mənəvi-psixoloji və döyüş hazırlığı yüksəkdir. Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, əsgərdə mənəvi-psixoloji hazırlıq yetərincə olmasa, o,



döyüş hazırlığına da tam yiyələnə bilməz. Bu amillər bir-birini tamamlamalıdır. Biz bu gün bütün hazırlıqlarımızı müharibə qanunlarına uyğun olaraq qurur və düşmənlə üzbəüz mövqelərdə xidmət apardığımızı yaddan çıxartmırıq.

Sonra müşahidə məntəqəsində döyüş növbəsi aparan əsgərlərə yaxınlaşırıq. Bu gənclərə baxdıqca qəlbimiz dağa dönür. Düşmən tərəfi müşahidə edən əsgərin qorxmazlığı, cəsarəti bizi düşündürür: bu əsgər ölümün də gözünə beləcə dik baxar. Onu nə düşmən gülləsi, nə də atəş səsləri qorxudar. Ana, Vətən, torpaq uğrunda şəhid olmağa hər an hazırdır qəhrəman Azərbaycan əsgəri!

Əsgər Elçin İbrahimov hərbi xidmətə Ağstafa rayonundan çağırılıb. 1 il 1 aydır ki, Vətənə sədaqətlə xidmət edir, gecə-gündüz səngərdə əsgər yoldaşları ilə birlikdə yurdumuzun keşiyindədir. E.İbrahimov bizimlə söhbətində arzularını belə ifadə etdi: "Ən böyük istəyim tezliklə torpaqlarımızı azad, qaçqın və köçkünlərimizin dədə-baba yurdlarına qayıtmaqlarını, bizdən sonra gələn əsgərlərin dinc, sülh şəraitində xidmət keçmələrini görməkdir. Ön xətdə, səngərdə hərbi xidmət keçmək şərəflidir. Bu, mənə də, səngərdə qazandığım dostlarıma da qismət olub".

Əsgər Ramazan Məmmədov isə təlimlərdə qazandığı bilik və təcrübəsindən danışır:

- Belə bir deyim var: təlimdə tər tökməsən, döyüşdə qələbə qazana bilməzsən. Bu gün bacarıqlı döyüşçülər kimi yetişməyimizdə komandirlərimizin böyük əməyi var. Hər addımda komandirlərin diqqət və qayğılarını hiss edirik.

Əsgər avqust ayının əvvəlində düşmənin kəşfiyyat-diversiya qrupunun hücum cəhdlərinin qarşısı alınarkən şəhid olan, yaralanan yoldaşlarını xatırladaraq dedi ki, biz onların qisasını düşməndən alacağımıza söz verdik, and içdik. Onlar qəhrəmancasına vuruşdular. Bu döyüşlər zamanı düşmənin bir daha zəif və qorxaq olduğunu gördük. Ali Baş Komandanımızın döyüş əmri olarsa, biz mütləq qalib gələcəyik. Çünki bizim güclü ordumuz var.

Döyüşçü əsgərlərdən kiçik çavuş Əşrəf Cəfərov, Kamran Cəfərov, Anar Cəfərov, Tərlan İbadov, Murad İbadov, Elnur Əliyev və başqaları hazırda ön xətdə xidmətlərini davam etdirirlər. Onları soyuq səngərdə bir amal, bir məqsəd birləşdirir - yalnız Vətənin bütövlüyünə, torpaqlarımızın azadlığına və düşmən üzərində böyük Qələbəyə nail olmaq!..

**Lalə ADİLQIZI,**
**Ceyhun KAZIMOĞLU,**
**"Azərbaycan Ordusu"**

Qabaqcıl təcrübə

# Bir nəfər hamı, hamı bir nəfər üçün

***Ölkəmizdə hərbi xidməti kişilik məktəbi hesab edirlər. Gənclərimizin əksəriyyəti hərbi xidmətə böyük həvəslə gedir. Çünki bu gün Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Vətən oğlunun müqəddəs borcu, eyni zamanda həyatının mənasıdır.***

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində qeyd olunur ki, Vətəni müdafiə etmək hər bir vətəndaşın müqəddəs borcudur. Həmçinin, Konstitusiyamızın 74-cü maddəsində göstərilir ki, "Vətənə sədaqət müqəddəsdir". Buna görə də vətəndaşlar qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçirlər. Azərbaycan Respublikasının "Hərbi xidmətkeçmə haqqında" Qanununda Vətənin əsgəri olmaq, onu hər hansı təcavüzdən qorumaq şərəfli vəzifə hesab olunur.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılan hər bir vətəndaş öz yoldaşları və komandirləri qarşısında döyüş bayrağı altında silahla dayanaraq, Vətənə, xalqına sədaqətli olacağı barədə təntənəli surətdə and içir. Hərbi and içən döyüşçü təntənəli surətdə vəd edir ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanını və canını əsirgəməyəcəkdir. Hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir. Buna görə də o, xalq qarşısında bəyan edir ki, "Andımı pozsam, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazıram!".



Hərbi vətənpərvərlik tərbiyəsi gənc nəsli Vətənə məhəbbət ruhunda tərbiyə edir, sağlam düşüncəli bir insan kimi formalaşdırır. Vətənimizin suverenliyini, xalqımızın dinc və yaradıcı əməyini etibarlı surətdə qorumaq, ərazi bütövlüyümüzü təmin etmək üçün ordu sıralarında hərtərəfli biliyə malik olan vətənpərvər gənclər xidmət etməlidirlər. Həm də əsgərlərin hərb işini öyrənərək mürəkkəb döyüşçü peşələrinə yiyələnmələri düşmənə qalib gəlmək bacarığını mənimsəmək deməkdir.

Bütün bunları nəzərə alaraq Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsi tərəfindən əsgərlərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsində məqsədyönlü tədbirlər həyata keçirilir. Təbii ki, şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinin və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi işində ilk növbədə xalqımızın milli-mənəvi dəyərləri və adət-ənənələri əsas götürülür. Belə ki, hərbi hissə və bölmələrdə şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsi, əsgəri dostluq, yoldaşlıq münasibətlərinin və milli həmrəylik ruhunun daha da gücləndirilməsi məqsədi ilə "Şəxsiyyətə fərdi yanaşma" yeni tərbiyə metodu tətbiq edilir. Bu, hərbi qulluqçular arasında "Hami-can və ürək dostu" tərbiyə metodudur ki, Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki hərbi hissə və bölmələrdə tətbiq edilərək öz bəhrəsini verməkdədir.

"Şəxsiyyətə fərdi yanaşma" yeni tərbiyə metoduna əsasən mütəxəssis hazırlığı kursunu bitirərək ştat üzrə xidmət yerinə yeni gəlmiş əsgər və çavuşlar üçün özündən 5-6 ay artıq xidmət etmiş, döyüş əlaçısı, intizamlı, əxlaqlı, bacarıqlı, yüksək düşüncə qabiliyyətinə malik olan əsgər və çavuşlardan "Hami-can və ürək dostu" təyin edilir. Xidməti yerinə yenicə qədəm qoymuş gənc əsgərlər "Hami-can və ürək dostu"nun mənəvi dəstəyi ilə hərbi mühitə uyğunlaşmağa başlayırlar. Bu tərbiyə metodu şəxsi heyət arasında nizamnamədənkənar münasibətlərin, cinayət və xoşagəlməz hadisələrin qarşısının alınmasında mühüm rol oynayır.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası ərazisindən həqiqi hərbi xidmətə çağırılan hərbi qulluqçulardan hər hansı biri qısamüddətli məzuniyyətə gedən zaman ölkəmizin digər bölgələrindən, ucqar rayonlarından olan əsgərlərdən birini də özü ilə evlərinə qonaq aparır. Artıq belə tərbiyə metodu ənənə halını alıb ki, bu da xalqımızın milli dəyərlərindən olan qonaqpərvərliyi özündə ehtiva edir. Çünki qısamüddətli məzuniyyətdə olan zaman bir əsgər başqasının evində duz-çörək kəsir. Min illərdir ki, xalqımızın adət-ənənəsində bir-biri ilə duz-çörək kəsən insanların ömürlük dostluq-qardaşlıq münasibətlərində olduğu göstərilib. Deməli, bu cür tədbirlər şəxsi heyətin həm mənəvi-psixoloji durumunun saflaşdırılmasında mühüm rol oynayır, həm də əsgərlər arasında sarsılmaz dostluq-həmrəylik münasibətlərini formalaşdırır.

Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və bölmələrində xidmət edən əsgərlər yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Bu da ilk növbədə nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin nəticəsidir. Həmçinin qarşılıqlı hörmət və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədi ilə "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı şəxsi heyətin devizinə çevrilib. Bu devizi əldə rəhbər tutan hərbi qulluqçularımız Vətən torpaqlarının etibarlı müdafiəsində bacarıq və səylərini əsirgəmirlər.

Ümumiyyətlə, Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsi tərəfindən şəxsi heyət arasında həyata keçirilən təlim-tərbiyə işində milli həmrəylik, milli təəssübkeşlik, milli qürur hissləri və azərbaycançılıq ideyası rəhbər tutulur. Bundan sonra da əsgərlərin mənəvi-psixoloji durumunun və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində əməli tədbirlər həyata keçiriləcək ki, hər bir əsgər hərbi anda, Vətənə və xalqa sadiq olsun.

**Nəriman NƏCƏFOV,**
**Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin məsləhətçi-psixoloqu**

Ordu və cəmiyyət

# "Ordumuzun gücünə inanıram"

***Dövlətimizin başçısı cənab İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin möhkəmlənməsi istiqamətində apardığı məqsədyönlü tədbirlər bizi sevindirir. Ona görə ki, erməni işğalı altında olan torpaqlarımızı azad etmək üçün ilk növbədə güclü ordumuz olmalıdır. Bu gün Azərbaycan Ordusu istər təlimdə, istərsə də ermənilərlə mövqe döyüşlərində öz sözünü layiqincə deyə bilir.***



Azərbaycan Silahlı Qüvvələrinin cəbhə xəttində keçirdiyi son təlimlər orduda xidmət edən gənclərimizin döyüş ruhunu artırmaqla yanaşı, biz vətəndaşlarda da xoş ovqat, böyük qələbəmizə inam hissi yaradır. Ümidvarıq ki, düşmən gec-tez öz məğlubiyyəti ilə barışmalı olacaq. Bunun başqa yolu yoxdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğı əsgər və zabitlərin sosial həyatında, təlimlərdə və cəbhə bölgəsində əsaslı dəyişikliklərə səbəb olub. Ölkə başçısının cəbhə bölgələrinə səfərləri bir daha onu göstərir ki, dövlətimizin orduya diqqət və qayğısı günbəgün artır. Ölkəmiz digər sahələrdə də dinamik inkişaf edir. İlbəil artan hərbi büdcəmiz bu inkişafın bariz nümunəsidir. Ölkəmizin ərazi bütövlüyünə qəsd etmiş bədnam ermənilər dinamik iqtisadiyyatımızdan xəbərsiz deyillər. Onların sərsəm ərazi iddiaları isə Ermənistanın iqtisadi iflasına səbəb olub. Bu dövlətin regionda keçirilən irimiqyaslı layihələrdən kənarda qalması, sözsüz ki, işğalla bağlıdır. Ermənilər yaxşı bilirlər ki, havadarlarının birbaşa iştirakı ilə əldə etdikləri müvəqqəti qələbənin bir gün sonu olacaq. Azərbaycan heç vaxt öz torpaqlarının işğalı ilə barışmayacaq.

Müdafiə naziri Zakir Həsənovun tez-tez səngərlərdə əsgər və zabitlərlə görüşüb onların arzu və istəklərini öyrənməsi döyüşçülərimizi qələbəyə ruhlandırır. Səngərdəki əsgərin məsuliyyət hissi artır. Xidmətdə fərqlənən hərbi qulluqçuların ordu rəhbərliyi tərəfindən yerindəcə mükafatlandırılması şəxsi heyətin döyüş ruhunun yüksəldilməsinə zəmin yaradır.

Bu gün təkcə orduda deyil, cəmiyyətdə də gələcəyə inam güclüdür. Ötən avqust hadisələri düşmənə bir daha xatırlatdı ki, işğal etdikləri əraziləri mütləq tərk etməli olacaqlar. Əgər düşmən öz çirkin niyyətindən əl çəkməzsə, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, torpaqlarımızı müharibə yolu ilə qaytaracağıq. Bunun üçün Azərbaycan gəncliyində böyük ruh yüksəkliyi var.

Hazırda böyüməkdə olan gənc nəslin də vətənpərvərlik hissləri yüksəkdir. Onlar hər zaman cəbhədəki vəziyyətlə maraqlanır, gərginlik artanda döyüşə getmək üçün arzu və istəklərini bildirirlər. Söz yox ki, gənclərin bu cür tərbiyə olunmasında ailə, məktəb və ictimai mühit az rol oynamır. Əgər Ali Baş Komandan əmr verərsə, Vətənimizin azadlığı naminə döyüşə qalxanlardan biri də mən olacağam.

**Murtuz ƏLİYEV,**
**Bakı şəhəri,**
**Xətai rayonundakı 221 saylı orta məktəbin tarix müəllimi**



Təlim

# "Əsgərin uğurunu görmək zabit üçün şərəfdir"

***Bir neçə gün davam edən yağış dayanmış, külək səngimişdi. Geniş, hüdudsuz səma ağlı-qaralı buludlardan təmizlənmişdi. Zabit və əsgərlərin təlim-məşqlərindən material hazırlamaq üçün yaxşı fürsət idi...***

Səhər yerbəyeri təzəcə başa çatmışdı. Hərbi hissə komandirindən tapşırıqlar alan zabit və əsgərlər xidmət yerlərinə, təlim-məşq meydançalarına, tədris otaqlarına tələsirdilər. Qərargahda ilk görüşdüyüm zabit Rəfael Abdullayev oldu. Qısa tanışlıqdan hiss etdim ki, bu zabit Vətənə, xalqa və torpağa ürəkdən bağlı bir insandır. Sözündə-söhbətində hərbçi dəqiqliyi, zabit qətiyyəti, zabit mədəniyyəti hiss olunurdu.

- Bu gün biz hərbçilərin üzərinə məsuliyyətli vəzifələr düşür, - deyə zabit Rəfael Abdullayev sözə başladı. - Ən başlıca vəzifəmiz erməni qəsbkarlarının işğalı altında olan torpaqlarımızı azad etməkdir. Zabit və əsgərlərimiz döyüş meydanlarında düşməni asanlıqla məhv edib qələbə qazanmaq üçün təlim mərkəzlərində, tədris otaqlarında daim məşq edib hazırlıqlarını artırırlar. Şəxsi heyətə hərbi bilikləri aşılamaq üçün əlverişli şəraitimiz var. Buna görə də zabit və əsgərlərimiz qələbə əzmindədirlər.

Kapitan Səbuhi Quluyevlə birgə təlim keçən şəxsi heyətin yanına yollandıq. Yolboyu əsgərlərin xidmətindən ürəkdolusu söhbət açan zabit bildirdi ki, şəxsi heyətin təlim-məşqlərdə qazandığı uğurlar gələcək qələbəmizdən xəbər verir. Əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığı yüksəkdir. İnanıram ki, belə hazırlıqlı döyüşçülərimiz tez bir zamanda erməni işğalçılarını torpaqlarımızdan qovacaqlar.



Şəxsi heyət onlar üçün ayrılmış xüsusi sahədə dərs keçirdilər. Əsgərlərin tapşırıqları cəld, çevik və qüsursuz yerinə yetirmələri elə ilk baxışdan diqqətimizdən yayınmadı. Bizi təlim meydanında qarşılayan zabit Oktay Əfsərov bildirdi ki, təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət dərs və məşğələlər keçir, daim döyüş hazırlığını artırır.

- Hərbçi üçün, əsgər üçün döyüş hazırlığının yüksək olması vacib şərtdir, - dedi zabit. - Bu mühüm şərtə əməl edən əsgərlərimiz təlimlərdə fəal iştirak edərək peşəkarlıqlarını daim artırmağa çalışırlar. Onların xidmətdə qazandıqları uğurlar hər birimizi ürəkdən sevindirir. Əsgərinin uğurunu görmək zabit üçün şərəfdir.

Əsgərlər zabit Rəşad Kərimovun komandalarını yerinə yetirərək əlverişli mövqe tutur, dəqiq atəşlərlə hədəfi məhv edirlər. Əsgərlərimizin təlimlərini izlədikcə xoş duyğular keçiririk. Əminik ki, belə yüksək hazırlıq şəxsi heyəti qələbəyə qovuşduracaq.

Zabit Rəşad Kərimov bildirdi ki, əsgərin döyüş hazırlığı təlimdən-təlimə artır. O, təlimdə fərqlənən əsgərlərdən Murad Camalov, Sahib Heydərov, Emin Xankişiyev, Hüseyn Səmədli, Aydın Ələsgərov, Vasif Məmmədov, Babək Mehdizadə, Fəxri Məmmədov, Sərkəz Əhmədov və başqalarının adlarını çəkdi.

- Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur, - deyə əsgər Vasif Məmmədov qeyd etdi. - Xidmətə gəldiyim ilk gündən hərbi bilikləri həvəslə öyrənirəm. Döyüş vərdişlərinə dərindən yiyələndiyimə görə verilən tapşırıqları peşəkarlıqla yerinə yetirirəm. Yüksək hazırlıq, yaxşı təcrübə həmişə insana uğur gətirir. Qələbə əzmində olan əsgərlərin məşğələsi davam edir. Vətən qarşısındakı müqəddəs borclarını şərəf və ləyaqətlə yerinə yetirən əsgərlərin nişangahından heç bir hədəf yayınmır. Nə qədər ki, torpaqlarımız işğaldadır, onların barmaqları silahların tətiyində olacaqdır.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xəbərlər: hadisələr, faktlar

## Ermənilərin lavaş təxribatının qarşısı alındı

UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin 9-cu iclasında Ermənistan tərəfindən UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına lavaş "erməni çörəyi lavaşın hazırlanması ənənələri" kimi təqdim edilsə də, Azərbaycan tərəfi buna etiraz edib.

Mədəniyyət və Turizm Nazirliyindən APA-ya verilən məlumata görə, UNESCO Konvensiyasının tələblərinə uyğun olaraq faylın adı dəyişdirilib: "Azərbaycanın etirazı, bununla bağlı həyata keçirilmiş fəaliyyətlər nəticəsində Ermənistanın təxribat cəhdlərinin qarşısı alınıb. Belə ki, UNESCO Konvensiyasının tələblərinə uyğun olaraq faylın adı dəyişdirilib və bununla da lavaş mətbəx mədəniyyətinin erməni millətinə aid olmadığı, sadəcə, bu mətbəx nümunəsinin Ermənistan ərazisində də mövcudluğu qəbul edilib".

## ABŞ və NATO Rusiya-Abxaziya ittifaqını tanımır



Birləşmiş Ştatlar Rusiya Prezidenti Vladimir Putinlə tanınmamış Abxaziya Respublikasının başçısı Raul Hacimba arasında bağlanmış ittifaq sazişini dəstəkləmir. AzərTAc Vesti.ru saytına istinadla xəbər verir ki, Gürcüstanın xarici işlər naziri Tamara Beruçaşvili ilə görüşündən sonra bu barədə məlumat verən ABŞ-ın bu ölkədəki səfiri Riçard Norland ölkəsinin Abxaziya ilə imzalanan heç bir müqaviləni tanımadığını da diqqətə çatdırıb. Bir qədər əvvəl NATO-nun Baş katibi Yens Stoltenberq də bu məsələ barədə analoji bəyanat vermişdi.

Qeyd edək ki, Rusiya ilə Abxaziya arasında strateji tərəfdaşlıq və hərbi ittifaq haqqında noyabrın 24-də Soçidə imzalanmış müqavilə xarici təcavüz zamanı qarşılıqlı yardımı da nəzərdə tutur.

## Vaşinqton analitikləri: İran - Qərb 1:0



İranın nüvə proqramı barədə Vyana danışıqlarının sona yetməsindən sonra Vaşinqtonun xarici siyasət dairələrində Tehranın öz istəyinə çatdığı fikri formalaşıb.

AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, analitiklərin fikrincə, İran hökumətinin məqsədi danışıqlarda status-kvonu saxlamaq idi və o, Vyanada buna nail oldu. Danışıqlar isə çox güman ki, dekabr ayında davam edəcək. Bundan sonra Qərb dövlətlərinin nailiyyət əldə etməsinin bir qədər də çətin olacağını deyən Elm və Beynəlxalq Təhlükəsizlik üzrə Vaşinqton İnstitutunun başçısı Devid Olbrayt həlledici məqamda Tehranın güzəştə getməməsini İran lideri və müşavirlərinin hələlik hər hansı razılaşma istəmədiyi ilə əlaqələndirir.

## Ferqüson şəhərindən başlayan etiraz dalğası ABŞ-ın 37 ştatına yayılıb



Hakimlər kollegiyasının Ferqüson şəhərində 18 yaşlı Afrika əsilli gənci güllələyən ağdərili polisə bəraət verməsi ilə əlaqədar etiraz aksiyaları davam edir. Ferqüson şəhərindən başlayan etiraz dalğası artıq ABŞ-ın bir çox ştatlarına yayılıb.

AzərTAc xəbər verir ki, etirazçılar Sent-Luisin mərkəzi küçələrini və şəhəri İllinoys ştatı ilə birləşdirən Missisipi çayı üzərindəki körpünü bir neçə saatlıq bağlayıblar. İrimiqyaslı etiraz dalğaları, həmçinin, Çikaqo, Filadelfiya, Atlanta, Los-Anceles, San-Fransisko kimi şəhərləri və ümumilikdə 50 ştatdan 37-sini bürüyüb. Ölkənin paytaxtı Vaşinqton da etiraz aksiyalarından kənarda qalmayıb. Şəhərin polis idarəsi qarşısında yerə uzanaraq ölmüş insan görkəmi alan nümayişçilərin sinələrində "Qaradərililərin də həyatı önəmlidir" şüarı yazılan plakatlar olub.

## Yaponiya Koreyanın keçirdiyi hərbi təlimləri yolverilməz hesab edir



Yaponiya Nazirlər Kabinetinin baş katibi Yoşihide Suqa jurnalistlərə bildirib ki, Koreya Respublikasının noyabrın 25-də Yapon dənizindəki Takeşima adası ətrafında keçirdiyi hərbi təlimlər tamamilə yolverilməzdir və dərin təəssüf hissi doğurur.

Koreya Respublikasının hərbi gəmiləri və təyyarələri düşmən tərəfinin hava desantı çıxardığı adanın blokadaya alınmasının təşkili ilə bağlı təlimlərdə iştirak edib.

Takeşima adası Koreya Respublikasının nəzarəti altında olsa da, Yaponiya həmin adanın ona məxsus olduğunu iddia edir. Yapon hökuməti israr edir ki, bu ada Yaponiyanın ayrılmaz tərkib hissəsidir və Koreya Respublikasının onu işğalı qeyri-qanunidir.

## OPEC üzvlərinin əksəriyyəti neftin qiymətinin ucuzlaşmasından narahatdır



OPEC üzvlərinin əksəriyyəti neftin qiymətinin getdikcə ucuzlaşmasından narahatlıq keçirir. AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə Amerikanın Platts agentliyinin direktoru Con Kinqston məlumat verib.

Onun dediyinə görə, OPEC neft hasilatının azaldılmasına qərar versə, bu, qiymətlərin ucuzlaşmasının qarşısını almaq məqsədi ilə ediləcək. Əks təqdirdə ixracatçı dövlətlər arasında "qara qızıl"ın satışı uğrunda gərgin mübarizə başlayacaq və bu halda qiymətlərin nə qədər ucuzlaşmasını demək çətin olacaq. Neft artıq bu ilin iyun ayından bəri 30 faiz ucuzlaşıb.

Qeyd edək ki, Platts enerji daşıyıcıları və metal bazarı haqda dünya informasiya agentliyidir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**



# Hərb xadiminə ehtiram

## Görkəmli sərkərdə Əlağa Şıxlinskinin xatirə gecəsi keçirilib

Bu günlərdə Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində Çar Rusiyası və Azərbaycan Ordusunun generalı, tanınmış hərbçi alim Əlağa Şıxlinskinin xatirə gecəsi keçirilib. Xatirə gecəsində elm, mədəniyyət, incəsənət xadimləri, hərbçilər, Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşları, Şıxlinskilər nəslinin və ictimaiyyətin nümayəndələri iştirak edirlər. Tədbirin aparıcısı, Şıxlinskilər ailəsinin nümayəndəsi, tanınmış kinorejissor, əməkdar incəsənət xadimi Ziya Şıxlinski ulu öndər Heydər Əliyevin hər zaman çıxışlarında Ə.Şıxlinskinin adını böyük hörmət və ehtiramla çəkdiyini, onun əvəzsiz hərbi xidmətlərinə önəm verdiyini qonaqların diqqətinə çatdırıb. O, məlumat üçün tədbir iştirakçılarına bildirib ki, noyabrın 20-də Prezident İlham Əliyev sərkərdə Ə.Şıxlinskinin anadan olmasının 150 illiyi ilə bağlı sərəncam imzalayıb. Kinorejissor buna görə dövlət başçısına minnətdarlığını ifadə edib.



Sərəncamda qeyd olunur ki, 2015-ci ilin aprelində Azərbaycanın görkəmli hərb xadimi general-leytenant Əlağa İsmayıl oğlu Şıxlinskinin anadan olmasının 150 illiyi tamam olur.

Prezidentin sərəncamında da o da göstərilir ki, XX əsrin əvvəllərindən etibarən iri miqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə ölkəmizin hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin Silahlı Qüvvələrinin formalaşmasına töhfələr vermişdir.



Gecənin qonaqları Rusiya səfirliyinin müşaviri Valentin Denisovun, akademik Teymur Bünyadovun və ehtiyatda olan general-mayor Mahmud Həmzəyevin sərkərdənin həyatı və hərbi xidmətləri barədə çıxışlarını dinləyiblər.

Tədbir kinorejissor Ziya Şıxlinskinin uzun illərin axtarışlarından sonra araya-ərsəyə gətirdiyi "Rus topunun Allahı sayılırdı" filminin nümayişi ilə yekunlaşıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Unutmayaq!

**1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:**

**Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.
**Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.
**Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.
**Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.
**Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.
**Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.
**Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.
**Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.
**Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Finlandiya Dövlət Teleradio Şirkətinin əməkdaşları cəbhə bölgəsində olublar



***Finlandiya Dövlət Teleradio Şirkətinin (YLE) əməkdaşları Vesa Toiyonen və İvar Heinmaa bir neçə gündür ki, respublikamızda yaradıcılıq ezamiyyətindədirlər. Onlar Azərbaycan haqqında yeni sənədli televiziya filminin çəkilişləri ilə əlaqədar cəbhə bölgələrinə səfər etmiş, müharibə nəticəsində dağıdılaraq viran qalmış yaşayış məntəqələrini öz gözləri ilə görmüş, yerli əhali, qaçqınlar və hərbçilərlə görüşmüşlər.***

Suriya, Əfqanıstan, İraq, Çeçenistan, Ukrayna və dünyanın digər qaynar ölkələri barədə bir çox filmin müəllifləri olan finlandiyalı qonaqlar qeyd etmişlər ki, onlar 1990-cı illərdən başlayaraq mütəmadi olaraq ölkəmizə gəlir və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında səylərini əsirgəmirlər.

Əgər əvvəlki filmlərdə neft-qaz məsələlərinə, qaçqınların problemlərinə geniş yer vermişdilərsə, növbəti filmdə onlar cəbhə bölgələrindəki reallıqları dünya ictimaiyyətinə çatdırmağı qarşılarına məqsəd qoymuşlar.

Tərtər rayonunun Qapanlı kəndində 25 yaşlı oğul itirmiş Almaz ananın göz yaşları, hər gün atəş altında yaşamalarına baxmayaraq doğma ocağını tərk etməyəcəyini inamla bildirən Xuraman Qədir qızının fədakarlığı, Laçın qaçqınlarının Vətən həsrəti və döyüş növbəsi aparan əsgər və zabitlərin vətənpərvərlik ruhu, ayıq-sayıqlığı yeni filmin yaradıcılarını təsirləndirmişdir. Kənd qəbiristanlığında şəhid Elməddin Cəfər oğlunun məzarı yaxınlığında çəkilişlər aparılarkən qonaqlar Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin növbəti dəfə pozulduğunun şahidi olmuşlar.



Film üçün müsahibə zamanı polkovnik Abdulla Qurbani ermənilərin Azərbaycana qarşı torpaq iddialarının tarixindən, beynəlxalq terrorizmdə erməni terrorizminin yerindən ətraflı məlumat vermiş, son vaxtlar Ermənistan tərəfindən atəşkəs rejiminin intensiv olaraq pozulduğunu, düşmənin təxribat xarakterli hərəkətlərə tez-tez yol verdiyini, cəbhəboyu bölgələrdə yaşayan əhalinin ciddi ziyan çəkdiyini vurğulamışdır.

Çəkiliş üçün hərtərəfli şərait yaradıldığına görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirən Finlandiya Dövlət Teleradio Şirkətinin (YLE) Beynəlxalq sənədli filmlər proqramının rəhbəri Vesa Toiyonen və kinooperator İvar Heinmaa Azərbaycana növbəti səfərləri zamanı erməni işğalından azad ediləcək torpaqlarda çəkilişlər aparmaq arzusu ilə cəbhə bölgələrindən xoş təəssüratlarla ayrılmışlar.

Qonaqları Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşı Gülnarə Əskərova müşayiət etmişdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# İdman

### Parisdə "Bakı 2015" 1-ci Avropa Oyunlarının təqdimatı keçirilib



Noyabrın 26-da Parisdə "Bakı 2015" birinci Avropa Oyunlarının təqdimatı olub.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən təqdimat mərasiminə Fransanın ictimai-siyasi dairələrinin nümayəndələri, mədəniyyət və idman xadimləri qatılıblar. Azərbaycan heykəltəraşlarının "Bakı 2015"-ə həsr olunan bürünc heykəllərdən ibarət sərgidə 20-dən çox heykəltəraşın idmanın müxtəlif növlərinin təsvir olunduğu əsərləri sərgilənib. Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış edərək bildirib ki, oyunlara altı mindən çox idmançı qatılacaq və 20 idman növündə yarışlar keçiriləcək: "Şübhəsiz ki, Avropa Oyunları Avropa idman tarixində yeni səhifə açacaq və ilk Avropa Oyunlarını tarixdə birinci oyunlar kimi qalacaq yarışları hazırlamaq, qəbul etmək və keçirmək Azərbaycan üçün böyük şərəfdir, böyük məsuliyyətdir".

### Fidanın qızıl medalı



Gənc azərbaycanlı Fidan Seyidova ilə macar Aknai Borokidən ibarət duet bu həftə bədii gimnastika üzrə Macarıstan Kuboku yarışlarında 12 yaşa qədər gimnastların qrupunda qızıl mükafat qazanıb. On iki ölkənin nümayəndələrindən ibarət hakimlər kollegiyası ən yüksək balları tərəddüd etmədən bu gözəl cütlüyə verib. Cütlük ev sahibləri ilə bərabər, müxtəlif ölkələrdən, o cümlədən Avstriya, Sloveniya, Slovakiya və Çexiyadan olan idmançıları geridə qoyub. Xatırladaq ki, bu, həmvətənimizin yeganə qızıl medalı deyil. Ötən il Fidanın və onun kiçik bacısı Nərminin iştirak etdiyi komanda elə debüt çıxışında Macarıstan Kubokunu qazanmışdı.

### Azərbaycan taekvondoçuları Avropa çempionatında 14 medal qazanıblar



Antalya şəhərində taekvondo üzrə klublar arasında ikinci Avropa çempionatında ölkəmizi 7 klubdan 53 taekvondoçu təmsil edib. Dünyanın 33 ölkəsindən 651 idmançının qatıldığı çempionatda taekvondoçularımız 5 qızıl, 3 gümüş və 6 bürünc, ümumilikdə, 14 medal qazanıblar. Azərbaycan Taekvondo Federasiyasından AzərTAc-a bildiriblər ki, idmançılarımızdan Zəlimxan Rəsulov (-63 kq), Kamil Adbulrazakov (-59 kq) İlham Əliyev (-45 kq), İlayda Kardelen (44 kq), Gülhanım Yeşildal (-55 kq) qızıl medala layiq görülüblər.

### "Rabitə" Avropanın ən güclü komandasını məğlub edib



Noyabrın 26-da qadın voleybolçulardan ibarət Çempionlar Liqasının qrup mərhələsinin ikinci turu çərçivəsində Azərbaycanın "Rabitə" komandası ilk ev oyununda qələbə qazanıb. AzərTAc xəbər verir ki, "Sərhədçi" İdman Olimpiya Mərkəzində "Rabitə" Rusiyanın "Dinamo" (Kazan) klubu ilə qarşılaşıb. Daha güclü oyun nümayiş etdirən "Rabitə" tay-brekdə rəqibini 15:9 hesabı ilə məğlub edərək qarşılaşmanın qalibi olub - 3:2.

### Azərbaycan şahmatçıları beynəlxalq turnirin qalibi olublar



Birləşmiş Ərəb Əmirliklərinin Şərcə şəhərində "İslam mədəniyyəti paytaxtları" beynəlxalq şahmat turniri keçirilib. AzərTAc xəbər verir ki, kişilərin yarışlarında 46, qadınların yarışlarında 26 şahmatçı iştirak edib. Kişilərin turnirində Qədir Hüseynov, Əhməd Ədli (Misir) və Semeteya Toloqonteqina (Qırğızıstan) eyni nəticə göstəriblər: onların hər biri 9 mümkün xaldan 7 xal toplayıb, lakin əlavə göstəricilər nəzərə alınmaqla Azərbaycan qrossmeysteri Qədir Hüseynov turnirin qalibi olub. Qadınların turnirində Azərbaycan nümayəndəsi Ülviyyə Fətəliyeva 9 mümkün xaldan 8 xal toplayaraq birinci yeri tutub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

### Yeni kəşfiyyat maşını

Digər zirehli texnika istehsalçıları kimi, çinlilər də yeni və müasir texnika hazırlamağa can atırlar. Hazırlanacaq kəşfiyyat maşını zirehli korpusla təchiz ediləcək. Döyüş maşınının hazırlanmasında müasir texnologiyadan istifadə edilib. Maşının silahlanmasına qoşa pulemyot, bir ədəd avtomat top daxil edilib və digər maşınlarda olduğu kimi, topla birlikdə pulemyot da quraşdırılıb. Ön hissəsində qumbaraatanın quraşdırılması da nəzərdə tutulub. Kəşfiyyat döyüş maşınlarının əsas vəzifəsi düşmənin yaxın ərazilərində reydlər aparmaq, müxtəlif hədəfləri aşkar etməkdir.

### Ümumqoşun dəbilqələri alınacaq

Yaxın vaxtlarda Rusiya ordusunun Şimal Hərbi Dairəsinin xüsusi təyinatlı bölmələri və dəniz piyadaları 16 mindən çox ümumqoşun dəbilqəsi ilə təmin olunacaq. Verilən məlumata görə, dəbilqənin çəkisi bir kiloqramdan az, güllə və mərmilərə qarşı davamlı olacaq. Dəbilqədə rabitə sistemi və monokulyar monitor da quraşdırılacaq. Bu, öz çəkisinə və mərmiyə davamlılığına görə ən yaxşılardan olacaq.

### Döyüşçü robotlar bölüyü yaradılacaq

Rusiya Silahlı Qüvvələrində texniki robot sisteminin və döyüşdə istifadə etmək üçün komplekslərin yaradılması üzrə işlər aparılır. Bu haqda "ABN-İnterfaks"a bu ölkənin hərbi sənaye komissiyasının üzvü Oleq Martyanov məlumat verib. Onun sözlərinə görə, hər bir dairə və donanmada artıq döyüşçü robotlardan ibarət bölüklər yaradılır. Bundan başqa onların ştat strukturları və idarəetmə orqanları da formalaşır. Bütün bu işlər Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş 2025-ci ilədək texniki robot komplekslərindən istifadə üzrə konsepsiyaya uyğun olaraq həyata keçiriləcək. Hazırda hərbçilər bəzi "ağıllı" robotların təlim mərkəzlərində sınaqdan keçirilər. Yeni texnikadan kəşfiyyat aparmaq, qarşı tərəfin hədəflərini aşkar etmək və onları məhv etmək, bölmələrə atəş dayağı durmaq, obyektləri qorumaq üçün istifadə ediləcək. Belə robotlar dənizçilər üçün də hazırlanır. Gələcəkdə donanmanın silahlanmasına robotlaşdırılmış raket kompleksləri daxil ediləcək.

### Ka-52K hücum helikopteri

2015-ci ildə "Mistral"lar üçün Ka-52K hücum helikopterinin sınağı başa çatacaq. Bu haqda Rusiyanın hərbi-texniki əməkdaşlıq üzrə federal xidmətinin direktor müavini Anatoli Punçuk məlumat verib. Plana görə, bu il helikopterlər "Şimal tərsanəsi" zavoduna göndəriləcək. İşlər 2015-ci ilin ortalarına qədər başa çatmalıdır. Hazırda proqram üzrə işlər həyata keçirilir.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

*Tibb xidməti*

# Bölgələrdə hərbi səhiyyə inkişaf edir

***Müasir dövrdə Azərbaycanın ordu quruculuğunda mühüm inkişaf uğurlarına imza atan sahələrdən biri də hərbi tibb xidmətidir. Ötən illərlə müqayisədə bu sahənin maddi-texniki bazasının möhkəmlənməsinə ciddi önəm verilir. Bir vaxtlar ümummilli liderimiz Heydər Əliyev dünyaşöhrətli Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunanda ölkəmizdə belə yüksək səviyyəli hərbi səhiyyə müəssisəsinin yaradılacağını arzulamışdı. İndi Azərbaycanın artan iqtisadi potensialı bütün sahələrdə olduğu kimi, orduda da tibb xidmətinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə zəmin yaradıb.***



Hazırda bölgələrimizdə də hərbi tibb müəssisələrinin yenidən qurulmasına və dünya standartlarına cavab verən tibbi avadanlıqlarla təmin edilməsinə başlanılıb. Gəncədə yerləşən hərbi səhiyyə ocağında olduğum zaman son bir ildə qazanılan uğurlardan, həyata keçirilən islahatlardan xəbər tutduq. Ötən ilin noyabrında Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu hospitalda olanda mövcud problemlərlə dərindən maraqlanıb və onların qısa vaxtda aradan qaldırılması üçün konkret göstərişlər verib. O vaxtdan bəri burada xeyli işlər görülüb, binanın istilik sistemi yenidən qurulub, müalicə və diaqnostika bölmələri müasir tibbi avadanlıqlarla təmin edilib.

Zabit Elşad Qafarov bizimlə söhbətində qeyd etdi ki, doğrudan da, ötən illərlə müqayisədə hərbi səhiyyə müəssisəsinin həyatında xeyli yeniliklər baş verib.

- Əsas uğurlarımızdan biri də hərbi tibb kontingentinin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində atılan inamlı addımlardır, - deyə zabit bildirdi. - Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəhbərliyi, şəxsən general-mayor Natiq Əliyev müalicə işinin səmərəliliyini və tibb mütəxəssislərinin hazırlığını yüksəltməyə ciddi əhəmiyyət verir. Bu məqsədlə ayrı-ayrı ixtisaslar üzrə həkim-mütəxəssislərin praktik vərdişlərinin artırılmasına diqqət mərkəzindədir. İnkişaf etmiş dövlətlərin müvafiq hərbi tibb müəssisələri ilə əməkdaşlıq inkişaf edir, elə bunun nəticəsi olaraq bir çox həkimlərimiz xarici ölkələrə təkmilləşdirmə kurslarına göndərilir. Məsələn, həkim İqbal Müseyibov bu yaxınlarda Türkiyədə təlim kursunu başa vurub. Başqa bir həkimimiz - uroloq Şahin Bağırov isə bu günlərdə belə kurslardan birinə ezam olunacaq. Artıq müxtəlif aktual mövzular üzrə elmi-praktik konfransların keçirilməsi də hərbi səhiyyə ocağımızda dəyərli ənənəyə çevrilib.

Ötən avqust hadisələri Silahlı Qüvvələrimizin hərbi həkim heyəti üçün də əsl sınaq dövrü olmuşdu. Həmin günlərdə əksər həkimlər ön xətdə yerləşən döyüş bölmələrinə ezam olunmuşdular. Əslində Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsi Baş Klinik Hospitalın bazasında fəaliyyət göstərdiyinə görə burada gənc həkimlər praktik hərbi vərdişlərə yiyələnirlər və sabahın bacarıqlı hərbi tibb mütəxəssisləri kimi formalaşırlar. İndi əksər hərbi tibb müəssisələrində olduğu kimi, Gəncə hospitalında da belə gənc həkimlər fəaliyyətə başlayırlar. Onlar nəzəri biliklərini peşəkar həmkarlarının əhatəsində təkmilləşdirirlər. Burada xidmətlərini davam etdirən bacarıqlı həkimlər Sahib Əsgərov, Füzuli Məmmədov, Cəmilə Tahirova, Rövşən Qarayev və başqaları çoxillik təcrübələrini gənc həmkarlarına həvəslə aşılayırlar.

Müalicə bölmələrində söhbətləşdiyim həkimlər, tibb bacıları və müalicə olunan hərbi qulluqçular da son vaxtlar hospitalda maddi-texniki təminatın xeyli yüksəldiyini qeyd etdilər.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

Baş gizir Hümbətov Vüqar Əli oğluna 2009-cu ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məsul katib
mayor
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Rəşid FAXRALI

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 395
Nüsxə 4570